# MƏMMƏDOV KAZIM ƏRŞAD OĞLU



Məmmədov Kazım Ərşad oğlu 1969-cu il oktyabrın 1-də Cəbrayıl rayonunun Böyük Mərcanlı kəndində dünyaya göz açmışdır. 1976-cı ildə buradakı 1 saylı orta məktəbə daxil olmuş, 1986-cı ildə oranı bitirmişdir. Həmin il sənədlərini Gəncə İnşaat Texnikumuna vermiş və tələbə adını qazanmışdır. 1988-ci ildə ordu sıralarına çağırılmışdır. Hərbi xidmətini Çelyabinsk şəhərində çəkmişdir. 1990-cı ildə ordudan tərxis olunduqdan sonra təhsilini davam etdirmək üçün Gəncəyə gəlir. O vaxt erməni yaraqlıları tez-tez bölgələrimizə hücumlar edirdilər. Kazım Məmmədov buna dözməyərək texnikumun qiyabi şöbəsinə keçir. 1991-ci ilin fevralında Cəbrayıl rayon Daxili İşlər Şöbəsində post-patrul xidmətində işə başlayır və tezliklə də cəbhəyə yollanır. O, ilk gündən öz vəzifə borcunu məsuliyyətlə yerinə yetirir. 15 noyabr 1991-ci ildə ermənilər böyük qüvvə ilə Xocavənd rayonunun Zamzur kəndinə hücum etmişdi. Qüvvələr qeyri-bərabər idi. Sayca üstün olan düşmən hər vəchlə sədləri qırmağa çalışırdı. Kazım boş evlərdən birində özünə münasib mövqe seçib düşmənin ondan artıq canlı qüvvəsini məhv edir. Ermənilər daha da azğınlaşaraq binaya od vururlar. Kiçik çavuş K.Məmmədov burada qəhrəmancasına həlak olur. Böyük Mərcanlı kəndində dəfn edilmişdir. Subay idi. 1991-ci ildən Cəbrayıl rayonundakı Böyük Mərcanlı kənd məktəbi Kazım Məmmədovun adını daşıyır. Məktəbin önündə büstü qoyulmuşdur. Azərbaycan Respublikası Prezidentinin 8 oktyabr 1992-ci il tarixli 264 saylı fərmanı ilə Məmmədov Kazım Ərşad oğluna ölümündən sonra “Azərbaycanın Milli Qəhrəmanı” fəxri adı verilmişdir. Adına 3 mükafat təsis edilmişdir.